**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№363/6** **21 fevral 2024-cü il**

**Auditorlar Palatasının 2023-cü il üzrə maliyyə hesabatlarının auditinin aparılması barədə**

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 11.6-cı “Auditorlar Palatasının 2023-cü il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin təşkili” bəndinin icrasını təmin etmək məqsədilə Maliyyə və texniki təminat idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Q.Əhmədov tərəfindən Auditorlar Palatasının 2023-cü il üzrə maliyyə hesabatlarının auditinin aparılması üçün “BKR Consulting” MMC-nin namizədliyinə dair məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “BKR Consulting” MMC tərəfindən Auditorlar Palatasının 2023-cü il üzrə maliyyə hesabatlarının auditinin aparılması məqsədəmüvafiq hesab edilsin.

2. Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

2.1. iki həftə müddətində Audirorlar Palatasının 2023-cü il üzrə maliyyə hesabatlarının İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartlarına (IPSAS) uyğun olaraq hazırlanması təmin edilsin;

2.2. Auditorlar Palatasının 2023-cü il üzrə maliyyə hesabatlarının auditinin İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartlarına (IPSAS) uyğun olaraq aparılması üçün 2024-cü il 21 fevral tarixindən etibarən “BKR Consulting” MMC ilə müqavilənin bağlanılması təmin edilsin;

2.3. 2025-ci ilin yanvar-fevral aylarında Auditorlar Palatasının 2024-cü il üzrə maliyyə hesabatlarının auditinin aparılması üçün kənar auditorun seçilməsinə dair tenderin keçirilməsi təmin edilsin.

4. “BKR Consulting” MMC-nin direktoru – auditor Elçin Əliyevə tapşırılsın ki, bir ay müddətində Auditorlar Palatasının 2023-cü il üzrə maliyyə hesabatlarının auditinin aparılmasını təmin etsin və nəticəsinə dair müstəqil auditorun hesabatını Palatanın rəhbərliyinə təqdim etsin.

5. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**